| | | | |
|---|---|---|---|
| **Ümumi məlumat** | **Fənnin adı, kodu və kreditlərin sayı** | AZLL 105, Azərbaycan ədəbiyyatı, 3 kredit, 6 AKTS | |
| | **Departament** | Dillər və ədəbiyyatlar | |
| | **Proqram (bakalavr, magistr)** | Bakalavr | |
| | **Tədris semestri** | 2025/2026-cı tədris ilinin yaz semestri | |
| | **Fənni tədris edən müəllim (lər)** | Phd Aygül Qurbanova | |
| | **E-mail:** | aygul.qurbanova.89@gmail.com | |
| | **Mühazirə otağı /Cədvəl** | | |
| | **Məsləhət saatları** | Tələbələrlə razılaşdırılmış vaxtda | |
| **Prerekvizitlər** | Yoxdur | | |
| **Tədris dili** | Azərbaycan dili | | |
| **Fənnin növü (məcburi, seçmə)** | Seçmə | | |
| **Dərsliklər və əlavə ədəbiyyat** | 1. Azərbaycan ədəbiyyatı tarixi: 6 cilddə. I c (Ən qədim zamanlardan XIV əsrə qədər). -B: “Elm”Azərb. M. Nizami adına Ədəbiyyat İnstitutu nəşri. 2004. - 706 s.<br>2. Azərbaycan ədəbiyyatı tarixi: 6 cilddə. II cild. (XIV – XVII əsrlər)- B.: “Elm” AMEA Nizami adına Ədəb İnstitutu nəşri. 2004. – 706 s.<br>3. Cəfərov N. Klassiklərdən müasirlərə. B., “Çaşıoğlu” 2004 272 s.<br>4. Əhmədov B. XX əsr Azərbaycan ədəbiyyatı. B. 2012.<br>5. Qarayev Y. Azərbaycan ədəbiyyatı: XIX və XX yüzillər. B.,“Elm” 2002 740 s.<br>6. Qasımzadə F. XIX əsr Azərbaycan ədəbiyyatı. -B., 2017, 552 s.<br>7. NəbiyevA. Azərbaycan xalq ədəbiyyatı.-B., 2009.<br>8. www.anl.az. Milli kitabxana<br>9. https://klv.az/ Xəzər Universitetinin ədəbiyyat saytı<br>10. Www.kultaz.comMədəniyyət və ədəbiyyat portalı<br>11. www.lit.az. Ədəbiyyat saytı<br>12. www.kitabxana.net. Elektron kitabxana<br>13. https://senet.az/ Mədəniyyət və ədəbiyyat portalı<br>14. www.azmif.net. Ədəbiyyatımızın ilkin qaynaqları haq.<br>15. www.azeribooks.aznet.org. – Azərbaycan şair və yazıçılarının əsərləri.<br>16. www.alatoran.org. Azad Yazarlar Ocağının saytı və eyni adlı dərginin e – variantı. | | |
| **Tədris metodları** | Mühazirə | + | |
| | Qrup müzakirəsi | + | |
| | Praktiki tapşırıqlar | + | |
| **Qiymətləndirmə** | **Komponentləri** | **Tarix / son müddət** | **Faiz (%)** |
| | **Aralıq imtahanı** | aprel 2026 | **30** |
| | Fəallıq | may 2026 | 5 |
| | Quiz | mart 2026 | 5 |
| | Quiz | aprel 2026 | 5 |
| | Layihə | may 2026 | 10 |
| | Davamiyyət | may 2026 | 5 |
| | **Final imtahanı** | iyun 2026 | **40** |
| | **Yekun** | | **100** |
| **Kursun təsviri** | Azərbaycan ədəbiyyatı tarixi kursunda ən qədim dövrlərdən başlamış | | |

| | |
|---|---|
| | müasir dövrə qədər Azərbaycan ədəbiyyatının tarixi inkişaf mərhələləri öyrənilir, zəngin mədəni irsimizin formalaşmasında mühüm yeri olan ediblərin, görkəmli şair və yazıçıların həyat və yaradıcılığı və onların irsinə aid bir sıra dəyərli ədəbi əsərlər təhlil olunur. |
| **Kursun məqsədləri** | Azərbaycan ədəbiyyatı tarixi kursunun tədrisində məqsəd Azərbaycan ədəbiyyatını tələbələrə sevdirmək, tələbələrin qədim və zəngin ədəbiyyat tariximiz haqqında bilgilərini dərinləşdirmək, tələbələri ən qədim dövrlərdən başlamış müasir dövrə qədər Azərbaycan ədəbiyyatının tarixi inkişaf mərhələləri ilə tanış etdirməkdir. Tələbələr Azərbaycan ədəbiyyatı ilə Azərbaycan tarixi, mədəniyyəti və incəsənəti ilə əlaqəli şəkildə tanış olacaqlar. Şair və yazıçıların yaradıcılığına aid mühüm ədəbi nümunələrlə tanış olan tələbələr bədii əsər təhlili, əsərin ideyasının müəyyənləşdirilməsi, mövzu ilə əlaqədar müzakirələr aparmağı və sərbəst mühakimə yürütməyi öyrənəcəklər. Tələbələr öz mülahizə və mühakimələrini bildirmək üçün mətn tərtib etməyi, fikirlərini bədii əsərdən gətirilmiş nümunələrlə qüvvətləndirməyi öyrənəcəklər.<br>Fənnin tədrisində qarşıya qoyulan məqsədlərdən biri də tələbələrdə bədii-estetik zövq formalaşdırmaqdır. |
| **Tədrisin (öyrənmənin) nəticələri** | Azərbaycan ədəbiyyatı-1 fənnini öyrənərkən aşağıdakı nəticələr əldə olunur:<br>1. Tələbələr ədəbi-bədii nümunələri təhlil edə, əsərin əsas ideyasını müəyyənləşdirə bilirlər;<br>2. Tələbələr bədii əsərləri mövzu və ideya baxımından müqayisə edə, əsərin aktuallığını qiymətləndirə bilirlər;<br>3. Tələbələrdə bədii-estetik zövq formalaşır;<br>4. Müasir ədəbi prosesi hərtərəfli öyrənmək və təhlil etmək bacarığı əldə olunur;<br>5. Tələbələr yazılı və şifahi şəkildə mətn tərtib edib öz mülahizə və mühakimələrini bildirməyi bacarır, fikirlərini bədii əsərdən gətirilmiş nümunələrlə qüvvətləndirə bilir. |
| **Qaydalar (Tədris siyasəti və davranış** | **Fəallıq.** Fəallığa görə veriləcək bal tələbənin müzakirələrdə iştirakına, mətn təhlilində göstərdiyi fəallığa, semestr boyu hazırladıqları təqdimatlara (prezentasiya), əlavə ədəbiyyatlara göstərdiyi marağa görə veriləcəkdir. Tələbələr həm öz qeydlərini yazmalı, həm də dərsin iş planında göstərilmiş ədəbiyyatlardan əldə etdikləri məlumatları qeyd etməlidirlər. Hər bir tələbə semestr ərzində bir mövzu haqqında prezentasiya hazırlamalıdır.<br>**Davamiyyət.** Üzrsüz buraxılan 2 dərs üçün 1 bal çıxılacaq.<br>**Quiz.** Quizlər test və açıq formada verilir. 5 bal ilə qiymətləndiriləcək. Aralıq və final imtahanlarından əvvəl keçirilir.<br>**Layihə.** Tələbələr seçilmiş mövzu üzrə qrup şəklində layihə hazırlayacaqlar. Layihə təkcə mövzunu əhatə etməklə kifayətlənməyəcək, həmçinin tələbələrin yaradıcı və praktik bacarıqlarını inkişaf etdirməyə xidmət edəcək. Layihə 10 bal üzrə qiymətləndiriləcək və qiymətləndirmədə bir neçə əsas meyar nəzərə alınacaq.<br>Qiymətləndirmə meyarları:<br>1. Tədqiqat bacarıqları: Tələbələr mövzu üzrə lazımi məlumatları toplamalı, onları düzgün və sistemli şəkildə təhlil etməli, əsas ideyaları müəyyən etməli və nəticələri təqdim etməyə hazır olmalıdırlar.<br>2. Təqdimat bacarıqları: Hər bir qrup layihəsini həm vizual, həm də şifahi |

<table>
<tr><td colspan="2"></td><td colspan="2">formada təqdim etməli, dinləyiciləri cəlb etməli və mövzunu aydın şəkildə çatdırmalıdır.<br>3. Yaradıcı yanaşma: Layihədə şeir səsləndirmək, rollu oyunlar göstərmək, video materiallar hazırlamaq, rəsm və ya digər vizual elementlərdən istifadə etmək kimi yaradıcı üsullar tətbiq edilə bilər. Bu, həm də tələbələrin öz fərdi bacarıqlarını nümayiş etdirməsinə imkan yaradır.<br>4. Əməkdaşlıq və qrup işi: Hər bir iştirakçının layihədə fəal iştirakı vacibdir. Qrup üzvlərinin bir-biri ilə əməkdaşlıq etməsi, vəzifələri paylaşması və layihəni birgə həyata keçirməsi qiymətləndirmədə nəzərə alınacaq.<br>5. Orijinallıq və innovativlik: Layihənin mövzuya yanaşma tərzi, təqdimat forması və ideyaların yeniliyi qiymətləndirmə üçün önəmlidir.<br>Layihə təkcə nəzəri biliklərin yoxlanması deyil, həm də tələbələrin kommunikasiya, yaradıcılıq və əməkdaşlıq bacarıqlarını inkişaf etdirmək məqsədi daşıyır. Nəticədə tələbələr həm öyrənir, həm də öz bilik və bacarıqlarını praktik olaraq tətbiq etmə imkanı qazanırlar.<br>İmtahan haqqında<br>1. İmtahana hazırlaşarkən dərslərdə götürülmüş qeydləri öyrənməklə yanaşı dərsin iş planında göstərilmiş ədəbiyyatlara o cümlədən başqa mənbələrə də müraciət etmək lazımdır.<br>2. İstifadə ediləcək ədəbiyyatın bir qismi tərəfimizdən təmin ediləcəkdir.<br>3. Aralıq və final imtahanlarının hər ikisində suallar test və açıq formada verilir.<br>4. Final imtahanında suallar aralıq imtahanından sonra keçilmiş materialların əsasında tərtib olunur.</td></tr>
<tr><td colspan="2"></td><td colspan="2">Cədvəl</td></tr>
<tr><td>Həftə</td><td>Tarix</td><td>Fənnin mövzuları</td><td>Dərslik / Tapşırıqlar</td></tr>
<tr><td>1</td><td></td><td>Azərbaycan şifahi xalq ədəbiyyatı<br>1. “Kitabi-Dədə Qorqud” (“Salur Qazanın evinin yağmalandığı boyu”)<br><br>2. “Koroğlu” (“Alı kişi”)</td><td>1. Kitabi-Dədə Qorqud (Əsil və sadələşdirilmiş mətnlər) Bakı, “Öndər”, 2004, s. 188-202<br><br>http://anl.az/el/latin_qrafikasi/axe/kd-q.pdf<br>2. Koroğlu. Bakı, “Lider”, s. 49-59<br><br>https://anl.az/el/latin_qrafikasi/axe/Koroqlu.pdf<br>Tapşırıq: hər iki dastandan istənilən iki obrazın (müsbət və mənfi olmaqla) müqayisəsini verin.</td></tr>
<tr><td>2</td><td></td><td>Orta əsrlər Azərbaycan ədəbiyyatının inkişaf istiqamətləri.<br>1. N.Gəncəvi “Xəmsə” (ümumi məlumat) “İsgəndərnamə” poemasından bir parça “Əyri dolanmaqla yoxdur işimiz”, “Sənsiz” qəzəli</td><td>1. Azərbaycan ədəbiyyatı tarixi. 6 cilddə. III c.Bakı, 2009, s 194-206<br>2. Cəfərov N. Klassiklərdən müasirlərə. B., Çaşoğlu, 2004, s. 41-78<br>3. Nizami Gəncəvi. İsgəndərnamə, s. 180-181<br>4. Babayev Y. Azərbaycan ədəbiyyatı tarixi (XIII-XVIII əsrlər) Dərslik.</td></tr>
</table>

| | | | |
|---|---|---|---|
| | | **Azərbaycan ədəbiyyatında fəlsəfi lirika.**<br>2. Nəsimi fəlsəfi lirikanın banisi kimi "Etməgil", "Tələb eylə"qəzəllərinin təhlili | Bakı, "Elm və təhsil" 2014. 79-137s. 259s., 433-439s., 452-544 s.<br>Tapşırıq: Nizaminin "Sənsiz" qəzəli ilə Nəsiminin "Etməgil" qəzəlinin ideya-bədii xüsusiyyətlərini müqayisə edin. |
| 3 | | 1. Füzuli yaradıcılığı. "Məndə Məcnundan füzun" qəzəlinin təhlili<br><br>2. Ş.İ.Xətayi yaradıcılığı. "Söz" və "Kərəm eylə" gəraylısının təhlili. | 1. Azərbaycan ədəbiyyatı tarixi. 6 cilddə. III c. Bakı, 2009 s. 385-444<br>2. M.Füzuli. Əsərləri. s. 123. http://anl.az/el/f/fm_e1.pdf<br>3. Xətai. Əsərləri. s. 348-349. http://anl.az/el/x/shix_e.pdf<br><br>Tapşırıq: Hər iki sənətkarın yaradıcılığındakı oxşar və fərqli xüsusiyyətləri müəyyən edin. |
| 4 | | **Azərbaycan ədəbiyyatında realizm mərhələsi**<br>1. M.P.Vaqif yaradıcılığı . "Sevdiyim ləblərin yaquta bənzər" qoşmasının təhlili<br><br>**Maarifçi-realizm mərhələsi**.<br>2. M.F.Axundzadə maarifçi-realist sənətkar kimi. Komediyaları. | 1. Azərbaycan ədəbiyyatı tarixi. 6 cilddə, IIIc. Bakı, 2009 s. 385-444<br>2.Babayev Y. Azərbaycan ədəbiyyatı tarixi (XIII- XVIII əsrlər) Dərslik. Bakı. "Elm və təhsil" 2014, 79-137s., 259s., 433-439s., 452-544s.<br>3. Vaqif. Əsərləri. s.110. http://anl.az/el/v/mpv_e.pdf<br><br>Tapşırıq: Vaqifin şeirlərindəki gözəl obrazını bədii ifadələrlə necə təsvir edərdiniz? Fikrinizi şərh edin. |
| 5 | | 1. "Hekayəti Müsyo Jordan və Dərviş Məstəli şah" əsərinin təhlili<br><br>**XX əsrin əvvəllərində Azərbaycan ədəbiyyatı.**<br>2. C. Məmmədquluzadənin bədii nəsri və dramaturgiyası. "Usta Zeynal" hekayəsinin təhlili | 1. Babayev Y. Azərbaycan ədəbiyyatı tarixi (XIII- XVIII əsrlər) Dərslik. Bakı. "Elm və təhsil" 2014, s.713-733<br>2. Cəfərov N. Klassiklərdən müasirlərə. B., Çaşoğlu. 2004, s. 141<br>3. M.F.Axundov. Bədii və ədəbi-tənqidi əsərləri. Səh.41-61. http://www.anl.az/el/emb/M.F.Axundzade/eserleri/kitab/mfa_mjordan&dervis-m.sh.pdf<br><br>http://www.anl.az/down/meqale/kaspi_az/2018/sentyabr/606824.htm<br>Tapşırıq: Müsyo Jordan və Dərviş Məstəli şah obrazlarını maarifçilik və cahillik müstəvisində müqayisə edin. |
| 6 | | 1. "Anamın kitabı" əsərində milli birlik<br><br>2. M.Ə.Sabir. "Hophopnamə"dən | 1. Məmmədquluzadə C. Seçilmiş əsərləri. 6 cilddə. Bakı, 2004, 139-150s. 169-171s. 232-234s. 277-281s.<br>2. Qarayev Y. Azərbaycan |

| | | | |
|---|---|---|---|
| | | seçmələr<br>“Ürəfa marşı”, “Neylərdin İlahi?!” | ədəbiyyatı:XIX və XX yüzillər. B., Elm 2002 s.284-381<br>3. www.hophop.name- M.Ə.Sabirin həyat və yaradıcığı haqqında sayt.<br>4. www.sabir-türkce.bloqspot.comM.Ə.Sabir haqqında müxtəlif yazıların yer aldığı sayt<br>5. http://anl.az/el/s/mes_h1.pdf<br>Tapşırıq: M.Ə.Sabirin satiralarında ifşa olunan hər hansı bir obrazın tipik xususiyyətlərini təsvir edin. |
| 7 | | **Azərbaycan ədəbiyyatında romantizm mərhələsi**: tipoloji xüsusiyyətləri.<br>1. H.Cavidin həyat və yaradıcılığı. “Mənim tanrım” şeiri<br>2. “Topal Teymur” | 1. https://huseyncavid.az/m/hc/ H.Cavidin həyat və yaradıcılığı haqqında sayt<br>2. https://www.huseyncavid.az/ H.Cavidin ev muzeyi<br>3. http://anl.az/el/emb/HuseynCavid/pdf/Azerbaycan-2008-N9.pdf<br>4. Hüseyn Cavid. Əsərləri. Beş cilddə. I cild. Bakı, “Lider nəşriyyat”, 2005, s. 130-131 https://anl.az/el/c/ch_e1.pdf<br>5. Hüseyn Cavid. Əsərləri. Beş cilddə. III cild. Bakı, “Lider nəşriyyat”, 2005, s. 252-302 http://www.anl.az/el/c/ch_e3.pdf<br>Tapşırıq: “Mənim tanrım” şeirindəki gözəllik və sevgi anlayışlarına aid bədii fikirlərinizi necə ifadə edərdiniz? |
| 8 | | 1.C.Cabbarlının yaradıcılığı “Aydın” faciəsi<br><br>**Aralıq imtahanı.** | 1. Cəfər Cabbarlı. Əsərləri. Dörd cilddə. II cild. Bakı, “Şərq-Qərb”, 2005,s . 196-242<br>http://anl.az/el/c/cc-e2.pdf<br>Tapşırıq: Aydın obrazının psixoloji durumunu necə təsvir edərdiniz? |
| 9 | | **Cümhuriyyət dövründə Azərbaycan ədəbiyyatı**<br>1. Ə.Hüseynzadənin poeziyası. “Hali-vətən” şeirinin təhlili<br>2. M.Ə.Rəsulzadənin poeziyası. “Mayıs duyğuları” şeirinin təhlili<br>3. Ə.Cavad-Cümhuriyyət şairi kimi “Azərbaycan bayrağına” | 1.http://www.anl.az/down/meqale/edebiyyat/2019/yanvar/627834.htm<br>2. www.resulzade.org– M.Ə.Rəsulzadənin həyatı və fəaliyyəti haqqında sayt<br>3. Çırpınırdın,Qara dəniz http://anl.az/el/Kitab/2013/258746.pdf<br><br>Tapşırıq: Hər üç şeirdəki vətənpərvərlik duyğusunun ifadəsini necə dəyərləndirirsiniz? |

| | | | |
|---|---|---|---|
| 10 | | **Azərbaycan ədəbiyyatında sovet dövrü**<br>1. M.Müşfiqin poeziyası. “Yenə o bağ olaydı”şeirinin təhlili<br><br>2. S.Vurğunun poeziyası. “Mən tələsmirəm”, “Azərbaycan”şeirlərinin təhlili | 1. Mıкayıl Müşfiq. Seçilmiş əsərləri. Bакı, “Şərq-Qərb”, 2004, s. 176-177 http://anl.az/el/m/mm_se.pdf<br>2. https://kayzen.az/blog/seirler_edebiyyat/17076/m%C9%99n-t%C9%99l%C9%99smir%C9%99m.html<br>3. https://yazarlar.az/2022/04/04/azerbaycan/<br><br>Tapşırıq: Müşfiqin “Yenə o bağ olaydı” şeirindəki bağ “xatirə-məkan” kimi sizdə hansı duyğuları oyadır? |
| 11 | | **Azərbaycan ədəbiyyatında yeni mərhələ - 60-cı illər.**<br>1. B.Vahabzadənin yaradıcılığı. “Dağda şəlalə kimi”şeirinin təhlili<br>M.Araz. “Məndən ötdü”şeirinin təhlili<br><br>2. İ.Muğannanın nəsri. “Zəhər” hekayəsinin təhlili | 1. Vahabzadə B. Seçilmiş əsərləri, 2 cilddə, cild 1, Bakı, 2004 . səh.11 https://www.anl.az/el/v/vb_se1.pdf<br>2. https://www.memmedaraz.az/?menu=396<br>3. https://edebiyyat-az.com/?p=40672<br><br>Tapşırıq: Verilmiş əsərlərdən birii seçin və həmin əsərin bədii xüsusiyyətləri haqqında öz qənaətlərinizi qeyd edin. |
| 12 | | 1. İ.Şıxlının nəsri “Namus qaçağı”hekayəsinin təhlili<br><br>2.Anarın nəsri.<br>“Mən, sən, o və telefon” hekayəsinin təhlili | 1.Şıxlı İ. Seçilmiş əsərləri, 2 cilddə, cild 1.Bakı, 2005, səh.369 https://anl.az/el/alf25/shi_se1.pdf<br><br>2.https://kulis.az/xeber/edebi-tenqid/men-sen-o-ve-telefon-anarin-hekayesi-59612<br><br>Tapşırıq: Əsərlərdən birini seçin və həmin əsərdəki əsas obrazlardan birinin psixoloji portretini təsvir edin. |
| 13 | | 1. Elçinin “Qatar.Pikasso.Latur.1968” hekayəsi<br><br>**Çağdaş Azərbaycan ədəbiyyatı**<br>2. V.Səmədoğlu “Uzaq yaşıl ada”şeirinin təhlili<br>R.Rövşən “Ayrılıq”, “Sevgi məktubu kimi”şeirlərinin təhlili | 1. https://kulis.az/xeber/edebi-tenqid/xeber_______________________________________-14654<br>2. http://anl.az/el/s/sv_uya.pdf<br>3. Ramiz Rövşən. Nəfəs. Kitablar kitabı http://web2.anl.az:81/read/page.php?bibid=57904&pno=2 |

| | | | |
|---|---|---|---|
| | | | Tapşırıq: Verilən əsərlərə istinad etməklə “Bədii əsərlərdə insan psixologiyasının təsviri” adlı kiçik bir mətn hazırlayın. |
| 14 | | 1. E.Hüseynbəyli. “Gözünə gün düşür” hekayəsinin təhlili.<br><br>2. H.İsaxanlı “Yaşamağa nə var ki”<br>3. İ.Fəhmi “Yeni əruz gəzişmələri” “Bağışla” | 1. http://www.anl.az/down/meqale/525/2010/fevral/109185.htm<br><br>2. https://hisaxanli.org/books/Tezadlar.pdf<br>3. https://edebiyyatqazeti.az/news/poeziya/9930-yeni-eruz-gezismeleri<br><br>Tapşırıq: Verilən əsərlərə istinad etməklə “Ədəbiyyatda emosionallığın təsviri” adlı kiçik bir mətn hazırlayın. |
| 15 | | **Cənubi Azərbaycan ədəbiyyatı.**<br><br>M.H.Şəhriyar “Heydərbabaya salam” poeması. | Şəhriyar. Heydər babaya salam. https://urmu.eu/Heyderbabaya_salam.pdf<br>Tapşırıq: Poemadakı xəlqiliyi necə dəyərləndirirsiniz? Fikrinizi şərh edin. |
| | | **Final imtahanı** | |